**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASINDA TAXIL MƏHSULLARI BAZARININ İNKİŞAF İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 – “Sahə iqtisadiyyatı”
Elm sahəsi: İqtisad elmləri
İddiaçı: **Cavahir Cavanşir qızı Allahverdiyeva**

Fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Gəncə – 2021**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor
**Bəyalı Xanalı oğlu Ataşov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Anar Fazil oğlu Abbasov**

iqtisad üzrə fəlsəfə doktoru,dosent
**Afəddin Vahid oğlu Həmidov**

iqtisad üzrə fəlsəfə doktoru,dosent
**Murad Zahid oğlu Tağıyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurası

Dissertasiya şurasının sədri: ______________ AMEA-nın həqiqi üzvü, i.e.d., professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: ______________ iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: ______________ iqtisad elmləri doktoru, professor
**İslam Hacı oğlu İbrahimov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünyada qlobal problemlər sırasında ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər beynəlxalq təşkilatları və dünya dövlətlərini narahat edən ən mürəkkəb problemlərdən biri kimi qiymətləndirilir. BMT-nin 2019-cu ildə hazırladığı məruzədə qeyd olunur ki, 2018-ci ilin yekununda dünyada aclıqdan əziyyət çəkənlərin sayı 815 milyon nəfər təşkil etmişdir. Hazırda dünya əhalisinin sayı 7,6 mlrd. nəfərdir və 2050-ci ildə isə 9,8 mlrd. nəfərdən çox olacaqdır. Bu qlobal problemlər baxımından ərzaq təhlükəsizliyi problemləri uzun illər ərzində aktual olaraq qalacaqdır.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra, aparılan sosial-iqtisadi islahatların mərkəzində əhalinin həyat şəraitinin yaxşılaşdırılması, gəlirlərinin artırılması, yoxsulluğun və işsizliyin azaldılması, əsas etibarı ilə iqtisadi təhlükəsizliyin təmin edilməsi və bu kontekstdə mühüm ərzaq məhsulları ilə təminatın yüksəldilməsi strateji səviyyəyə qaldırılmışdır. Ərzaq məhsulları ilə təminatın yüksəldilməsi və əhalinin mühüm ərzaq məhsullarına olan tələbatının ödənilməsində taxıl məhsullarının əhəmiyyəti kifayət qədər böyükdür. Taxıl məhsulları istehsalının, xüsusilə mühüm ərzaq məhsulu olan buğdanın istehsalının və ehtiyatlarının yaradılmasının ölkə əhalisinin artım tempinə və tələbatına uyğun şəkildə balanslaşdırılması strateji vəzifələr kimi qarşıda durur. Bu proseslərdə kənd təsərrüfatı sahəsinin bitkiçilik sektorunun müasir texnologiyalar əsasında inkişaf etdirilməsi və ümumilikdə aqrar sferanın inkişafının mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılması problemlərinin həlli istiqamətində davamlı tədbirlərin görülməsinə, inkişaf proqramlarının reallaşdırılmasına baxmayaraq, bu yönümdə vəzifələrin əhəmiyyətli hissəsinin daha səmərəli həlli yollarının müəyyənləşdirilməsi və reallaşdırılması tələb olunur.

Mürəkkəb problemlərdən biri də taxıl məhsulları bazarının inkişafı və səmərəliliyinin təmin edilməsi məsələsidir. Ölkəmizdə bu sahəyə strateji yanaşmaların ardıcıl şəkildə həyata keçirilməsinə və dövlət dəstəyi mexanizmlərinin yetərli olmasına baxmayaraq, taxıl məhsulları bazarının dinamikliyinə və tarazlığına nail olunmamışdır.

Bazarın strukturu lazım olunan səviyyədə diversifikasiyalaşdırılmamışdır və onun inkişaf potensialının artırılması tədbirləri adekvat səviyyədə deyildir. Taxıl məhsulları bazarının vahid tsikl üzrə bütün mərhələlərinin, o cümlədən istehsal, saxlama, emal, satış, son istehlakçılara kimi olan proseslərinin dinamik və səmərəli təşkili üçün infrastruktur bazasının gücləndirilməsi və mövcud fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi zərurəti qalmaqdadır. Başqa bir məqsəd ölkəmizin mühüm taxıl məhsulu olan buğda üzrə idxaldan asılılığının azaldılması istiqamətində aparılan tədbirlərin səmərəliliyinin yüksəldilməsindən ibarətdir. Son illərdə taxılın ümumi yığım həcminin artırılması mümkün olmamışdır, əgər 2017-ci ildə 2928,8 min ton taxıl istehsal olunmuşdursa, bu göstərici 2019-cu ildə 3538,5 min ton təşkil etmişdir. Buğda məhsulunun istehsalında da artım müşahidə olunmamışdır. Belə ki, 2018-ci ildə buğda istehsalının həcmi 1981,2 min ton və 2019-cu ildə isə 2092,5 min ton səviyyəsində olmuşdur. Ölkəmizdə buğda məhsulu üzrə idxaldan asılılıq səviyyəsi 2019-cu ildə 42,8% təşkil etmişdir və il ərzində 1,58 mln. ton buğda idxal edilmişdir. Bu göstəricilər baxımından yanaşdıqda, ölkəmizdə buğda məhsulu üzrə ümumi özünütəminetmə səviyyəsi 2019-cu ildə 57,2 % təşkil etmişdir. Bütün bunlar taxıl məhsullarının, ilk növbədə, buğda istehsalının artırılmasını və ehtiyatlarının gücləndirilməsi problemlərinin strateji səviyyədə baxılmasını, bu istiqamətdə zəruri tədbirlərin görülməsi proseslərinin intensivləşdirilməsini ön plana çəkir.

Hazırda Ermənistan silahlı qüvvələri üzərində böyük zəfərlə bitən 44 günlük Vətən müharibəsinin nəticəsində işğaldan azad edilən torpaqlarımızda kənd təsərrüfatının gələcək inkişafının planlaşdırılmasına başlanılıb. Torpaqlarımızın azad edilməsi kənd təsərrüfatının inkişafına müsbət təsir göstərəcək. Ölkənin əkin dövriyyəsi artacaq, strateji əhəmiyyətli su anbarlarının yerləşdiyi ərazilərin işğaldan azad edilməsi nəticəsində yüz min hektarlarla sahənin suvarılması təmin ediləcək. Azad edilmiş torpaqlarda taxılçılıq, üzümçülük, pambıqçılıq və heyvandarlığın inkişafı üçün çox böyük potensial var. Bu potensialdan düzgün istifadə etməklə, eyni zamanda, aqrar emal sənayesini genişləndirməklə aqrar sahənin davamlı inkişafı təmin olunacaq.

Yaxın perspektivdə Azərbaycanda taxıl məhsulları bazarının dövlət tənizmlənməsi mexanizmlərinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi üzrə kompleks və sistemli tədbirlərin görülməsi lazım gələcəkdir. Taxıl məhsullarının istehsalının səmərəliliyinin yüksəldilməsi, məhsuldarlığın artırılması, bu sahələrə yüksək texnologiyaların və qabaqçıl idarəetmə metodlarının gətirilməsi, taxılçılıq təsərrüfatlarının fəaliyyətinin daha yüksək səviyyədə stimullaşdırılması, dövlət dəstəyi mexanizmlərinin multiplikativ təsirinin artırılması, buğda istehsalı və ehtiyatlarının yaradılmasının ölkə əhalisinin tələbatına uyğun təmin edilməsi, taxıl məhsulları bazarının dinamikliyinə və adekvatlığına nail olunması üçün strateji vəzifələrin öhdəsindən gəlmək tələb olunur və bu istiqamətlərdə mövcud fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi və dövlət tənizmlənməsi tədbirlərinin səmərəliliyinin yüksəldilməsi təmin edilməlidir. Bütün bunlar üçün fundamental elmi tədqiqatların aparılması, müvafiq tövsiyələrin verilməsi və təkliflərin hazırlanması tələb olunur.

Qeyd olunanlar nəzərə alınmaqla, dissertasiya işi fundamental araşdırmaya ehtiyacı olan tədqiqat işi kimi baxıla bilər və bu amillər tədqiqat işinin mövzusunun aktuallığını ifadə edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti kimi ölkənin taxıl məhsulları bazarı və Gəncə-Qazax iqtisadi rayonunun taxılçılıq təsərrüfatları seçilmişdir. Tədqiqatın predmetini taxıl məhsulları bazarının daha da inkişaf etdirilməsi, onun səmərəli fəaliyyəti və taxılçılıq təsərrüfatlarının gücləndirilməsi problemləri, onları şərtləndirən amillər və məsələlər təşkil edir.

Taxıl məhsulları bazarının inkişafı və səmərəliliyinin təmin edilməsi, bunlarla bağlı fəaliyyət istiqamətlərinin səmərəliliyinin artırılması, onun sahə strukturunun təkmilləşdirilməsi, təkmil təşkilati-iqtisadi fəaliyyət mexanizminin qurulması, ərzaq təhlükəsizliyi kontekstində taxıl məhsulları bazarının, həmçinin ərzaq təhlükəsizliyi problemlərinin tədqiqinin nəzəri, metodoloji və tətbiqi aspektləri bir qrup ölkə alimlərinin - akademiklər C.Ə.Əliyev və Z.Ə.Səmədzadə, həmçinin V.H.Abbasov, İ.H.Alıyev, B.X.Ataşov, R.Z.Hüseyn, İ.H. İbrahimov, E.R.İbrahimov, E.A.Quliyev, A.F.Abbasov, S.V.Salahov, N.Ə.Şalbuzov və digərlərinin elmi əsərlərində baxılmışdır.

Klassik və ümumilikdə dünya iqtisadçı alimlərindən A.Smit, A.Marşal, J.Say, R.Kouz, E.Diaz-Bonilla, R.Kuper, həmçinin M.Y. Borisov, J.T.Kulçikova, Y.İ.Marqulis, N.İ.Pıjikova, Y.A.Boloneva, S.A.Vısoçkina, A.T.Qetman, N.Y.Yevdokimova, R.S.Maksimov, Y.A.Medvedev, N.V.Meşkov, M.P.Rodionova, A.F.Siraş, S.V.Trufanova, S.A.Şilovskaya və digərlərinin elmi əsərləri, araşdırmaları diqqət çəkir.

Bunlarla belə, taxıl məhsulları bazarının inkişafı və səmərəliliyinin yüksəldilməsi, inkişaf xüsusiyyətlərinin və potensialın qiymətləndirilməsi, qlobal ərzaq problemləri üzrə çağırışlar nəzərə alınmaqla taxıl məhsulları bazarının inkişafının və mövcud mexanizmlərinin tənzimlənməsi, bu sahədə dövlət dəstəyi vasitələrinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi üzrə fundamental elmi araşdırmalara zərurət qalmaqdadır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi yeni tələblər baxımından taxıl məhsulları bazarının inkişafı və səmərəliliyinin yüksəldilməsi yollarının müəyyənləşdirilməsidir. Bunlarla bağlı olaraq, tədqiqat işində qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- ✓ bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq, bir sistem kimi taxıl məhsulları bazarının formalaşması problemləri üzrə nəzəri aspektlərin və metodoloji xüsusiyyətlərin ümumiləşdirilməsi və inkişaf etdirilməsi;
- ✓ taxıl məhsulları bazarının formalaşması və fəaliyyətinin qanunauyğunluqlarının aşkar edilməsi və ona konseptual yanaşmaların əsaslandırılması;
- ✓ taxıl məhsulları bazarının səmərəliliyi üzrə beynəlxalq təcrübənin qiymətləndirilməsi və yerli şəraitə uyğun onun ölkəmizdə tətbiqi imkanlarının araşdırılması;
- ✓ taxıl məhsulları bazarının ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasındakı rolunun müəyyən edilməsi;
- ✓ taxıl məhsulları istehsalının və bazarının müasir vəziyyətinin araşdırılması, onun inkişafına təsir edən amillərin üzə çıxarılması;
- ✓ taxılçılıq təsərrüfatlarının inkişaf xüsusiyyətlərinin təhlili və qiymətləndirilməsi;

✓ taxıl məhsulları bazarının inkişaf etdirilməsi və səmərəliliyinin artırılmasında marketinq xidmətinin təkmilləşdirilməsi və inteqrativ inkişafın sürətləndirilməsi istiqamətlərinin əsaslandırılması;

✓ taxıl məhsulları bazarının dövlət tənizmləməsi mexanizmlərinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi üzrə tövsiyələrin hazırlanması, təkliflərin verilməsi və s.

**Tədqiqat metodları:** Tədqiqat zamanı müşahidə, müqayisəli təhlil, balans, məntiqi ümumiləşdirmə, məqsədli-sistemli yanaşma, iqtisadi-statistik, qruplaşdırma, proqnozlaşdırma və digər üsullardan istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Müdafiəyə təqdim olunan əsas müddəalar aşağıdakılarla xarakterizə olunur:

➢ taxıl məhsulları bazarının formalaşması elmi-nəzəri əsasları ilə bağlı ümumi müddəaların və taxıl məhsulları bazarının inkişafının iqtisadi aspektlərinin müəyyən edilməsi;

➢ taxıl məhsulları bazarının inkişafını və səmərəliliyini şərtləndirən amillərin ölkənin ərzaq təhlükəsizliyi kontekstində müəyyənləşdirilməsi;

➢ taxıçılıq məhsulları istehsalının mövcud vəziyyətin qiymətləndirilməsi;

➢ taxıl məhsulları bazarının səmərəliliyini xarakterizə edən əsas iqtisadi göstəricilərinin tədqiqi;

➢ taxılçılıq təsərrüfatlarının xüsusiyyətlərinin və taxılçılığın inkişaf potensialının
qiymətləndirilməsi;

➢ taxıl məhsulları bazarında və taxılçılıq təsərrüfatlarında marketinq xidmətinin təşkili və inkişaf etdirilməsi imkanlaının müəyyən edilməsi;

➢ taxıl istehsalı və emalı müəssisələrinin inkişafının, onlar arasında inteqrasiya münasibətlərinin yaxşılaşdırılması istiqamətlərinin müəyyənləşdirilməsi;

➢ taxıl məhsulları bazarının tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın elmi yeniliyi.** İşin əsas elmi yeniliyi qlobal ərzaq problemləri çağırışları nəzərə alınmaqla, taxıl məhsulları ba-

zarının inkişafı və səmərəliliyinin yüksəldilməsi yollarına dair müasir elmi-praktiki baxışların formalaşdırılmasıdır. Digər elmi yeniliklər aşağıdakılardır:

➢ qlobal dəyişikliklər və iqtisadi-aqrar islahatlar şəraitində taxıl məhsulları bazarının strateji rolu, formalaşması və inkişafı proseslərində onun səmərəliliyinin təmin edilməsi ilə bağlı nəzəri-metodoloji əsaslar sistemli şəkildə araşdırılmışdır;

➢ taxıl bazarının səmərəliliyinin təmin edilməsi strategiyasından yanaşmaqla, bazar iqtisadiyyatı şəraitində təsərrüfatçılığın formalaşması və təşkilinin əsas şərtləri və prinsiplərinin blok-sxemi hazırlanmışdır;

➢ dünya taxıl məhsulları bazarının inkişaf səmtləri və problemləri əsas götürülməklə, taxıl məhsulları bazarının formalaşması və inkişaf etdirilməsinin mühüm elementləri, funksiyaları müəyyənləşdirilmiş və blok-sxemi işlənilmişdir;

➢ ölkənin ərzaq təhlükəsizliyi kontekstində taxıl məhsulları bazarının formalaşması və inkişaf etdirilməsində strateji əhəmiyyət kəsb edən metodoloji yanaşmalar əsaslandırılmış və müəyyənləşdirilmişdir;

➢ ölkədə taxıl məhsullarının istehsalının və bazarının müasir vəziyyətinin təhlilindən çıxış etməklə, taxıl məhsullarının istehsalı, tədarükü, saxlanılması, ehtiyatlarının yaradılması üzrə dövlət tənzimlənməsi mexanizmlərinin yenilənməsi və mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılmasının vacibliyi əsaslandırılmışdır;

➢ taxılçılıq təsərrüfatlarının və emal müəssisələrinin inkişafında innovativ yanaşmanın təmin edilməsi, yüksək texnologiyaların transferi və tətbiqi ilə bağlı proseslərin intensivləşdirilməsinin strateji əhəmiyyəti açıqlanmışdır;

➢ Gəncə-Qazax iqtisadi rayonunun ölkə iqtisadiyyatında rolu və əhəmiyyətinin təhlilindən yanaşmaqla, bu rayonun taxıl məhsulları bazarında payının artırılması üçün taxılçılıq istiqamətində ixtisaslaşması potensialı qiymətləndirilmiş və taxılçılıq aqroparkının, yaxud regional taxılçılıq klasterinin yaradılmasının məqsədəuyğunluğu vacib hesab edilmişdir;

➢ ölkədə taxıl məhsulları bazarının inkişafının intensivləşdirilməsi məqsədilə taxılın istehsalı, satışı və emalı prosesləri üzrə mar-

ketinq xidmətinin əsas funksiyaları və vəzifələri müasir tələblər baxımından dəqiqləşdirilmişdir;

- ölkədə taxıl məhsulları bazarının səmərəliliyinin artırılması üçün taxıl istehsalı və emalı müəssisələrinin inteqrativ inkişafının sürətləndirilməsi istiqamətləri müəyyənləşdirilmiş, mexanizmləri əsaslandırılmış və blok-sxemi verilmişdir;
- mühüm taxıl məhsulu olan ərzaq buğdasının ehtiyatlarının ölkə əhalisinin tələbatına uyğun olaraq yaradılması və bununla bağlı idxaldan asılılığın minimuma endirilməsi istiqamətində xüsusi dövlət proqramının hazırlanmasına və reallaşdırılmasına zərurətin olmasına dair yeni elmi yanaşmalar verilmişdir;
- Azərbaycanda taxıl məhsulları bazarının dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi yolları müəyyənləşdirilmiş və blok-sxemi hazırlanmışdır;
- taxıl məhsulları istehsalının artımının və bazarının inkişafının əhalinin artım proqnozuna adekvat olaraq təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasında taxıl məhsullarının istehsalı, bazarının inkişafı və səmərəliliyinin artırılması üzrə Dövlət Proqramı"nın (2020-2030-cu illər) hazırlanması və reallaşdırılmasının vacibliyi əsaslandırılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti:** Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti taxıl məhsulları bazarının inkişafı və səmərəliliyi, eləcə də regional taxılçılıq təsərrüfatlarında mühüm təşkilati-iqtisadi problemlərin həllinə istiqamətlənmiş tədbirlərin müəyyənləşdirilməsindən ibarətdir. Tədqiqat nəticəsində əldə edilmiş nəticə və təkliflər gələcəkdə taxıl məhsullarının istehsalı, bazarının inkişafı və səmərəliliyinin yüksəldilməsi istiqamətində layihələrin və proqramların hazırlanmasında və onların reallaşdırılmasında faydalı ola bilər. Bunlarla yanaşı, tədqiqat işinin materiallarından iqtisad yönümlü ali təhsil müəssisələrinin tədris prosesində və dərs vəsaitlərinin hazırlanmasında, "Ərzaq təhlükəsizliyinin aktual problemləri", "Aqrar siyasət", "Aqrar sahədə kooperasiyanın aktual problemləri", "Aqrar bazar münasibətləri" və "Aqrar sahibkarlığın əsasları" kimi fənlərini tədrisi zamanı mühazirə mətnlərində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi:** Tədqiqat işinin başlıca müddəaları və əsas nəticələri Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, həmçinin respublika və beynəlxalq əhəmiyyətli elmi-praktiki konfrans materiallarında öz əksini tapmışdır.

Tədqiqatda irəli sürülmüş təklif və tövsiyələr Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Goranboy Dövlət Aqrar İnkişaf Mərkəzi tərəfindən tətbiq üçün qəbul edilmişdir (arayış №54, 01 mart 2019-cu il).

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**: Dissertasiya işi Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir**.**

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi girişdən (17861 işarə), üç fəsildən (I fəsil 101302, II fəsil 64183, III fəsil 70464 işarə), nəticədən (13127) və istifadə edilmiş ədəbiyyat siyahısından (187 adda) ibarət olub, ümumi həcmi 164 səhifədir. İşdə 11 cədvəl, 10 sxem,9 diaqram, 1 şəkil,1qrafik vardır. Dissertasiyanın ümumi mətn hissəsi (cədvəllər. sxemlər, diaqramlar, qrafiklər və ədəbiyyat siyahısı istisna edilməklə) isə 262677 işarə təşkil edir.

## İŞİN ÜMUMİ MƏZMUNU

Dissertasiya işinin **Girişində** mövzunun aktuallığı, problemin öyrənilmə vəziyyəti, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, nəzəri-metodoloji əsasları, məlumat mənbələri, elmi yeniliyi, təcrübi əhəmiyyəti, nəticələrin sınaqdan keçirilməsi və istifadə edilməsi və s. öz əksini tapmışdır.

Dissertasiya işinin **"Taxil məhsulları bazarının formalaşması və inkişafının nəzəri əsasları" adlanan birinci fəsildə** taxıl məhsulları bazarının formalaşmasının elmi-nəzəri əsasları, ölkənin ərzaq təhlükəsizliyi kontekstində taxıl məhsulları bazarının rolu və metodoloji xüsusiyyətləri, taxıl məhsulları bazarının səmərəliliyi üzrə beynəlxalq təcrübəsi ətraflı tədqiq edilmişdir.

Taxıl məhsulları hər bir ölkənin iqtisadi və ərzaq təhlükəsizliyinin əsas komponentlərindən biri kimi strateji əhəmiyyət kəsb edir. Bu baxımdan taxıl məhsullarının istehsalı, bölgüsü, mübadiləsi və istehlakı mərhələlərini əhatə edən dəyər zənciri həlqələrinin səmərəli-

liyi taxıl məhsulları bazarının formalaşdırılması və inkişaf etdirilməsinin zəruriliyini şərtləndirir. Taxıl məhsulları bazarının formalaşdırılması, fəaliyyəti və inkişafı ümumi qtisadi qanunların təsiri ilə baş verir. Bu baxımdan taxıl məhsulları bazarının fəaliyyəti bazar münasibətlərinin ümumi qanunauyğunluqlarına uyğun şəkildə formalaşır. Ona görə taxıl məhsulları bazarının inkişaf perspektivləri və istiqamətləri müəyyənləşdirilərkən, ilk növbədə bu sahədə elmi-nəzəri fikirlərin öyrənilməsi və təhlil edilməsi vacibdir. Müxtəlif ölkələrin bazar iqtisadiyyatı modellərinin inkişafı üzrə metodoloji və nəzəri yanaşmalardan istifadə, taxıl məhsulları bazarının formalaşması ilə bağlı elmi-nəzəri əsaslandırmalarda xüsusi əhəmiyyət kəsb edir.

Taxıl məhsulları bazarının fəaliyyətinin tədqiqi onun resurslara, əmtəə və xidmətlərə olan tələbinin stimullaşdırma tədbirləri ilə uzlaşdırılması nəticəsində, bu bazar növünün inkişafının reallaşdırılması mexanizmini daha dərindən dərk etməyə imkan verir. Bu amil, həmçinin tələb və təklifin tarazlığı üçün şərait yaratmağa, bunun üçün müxtəlif iqtisadi alətlərdən istifadə etməyə, müəyyənləşdirilmiş hədəflərə uyğun olaraq iqtisadi inkişafı stimullaşdırmağa, sosial qeyri-bərabərliyi yumşaltmağa və maraqların balansını qoruyub saxlamağa, müxtəlif mülkiyyət və təsərrüfatçılıq formalarının fəaliyyətinin şaxələndirilməsi vasitəsilə dəyişən iqtisadi şəraitə uyğunlaşmanı təmin etməyə imkan verir.

Ölkənin taxıl məhsullarına olan tələbatının, ilk növbədə buğda məhsuluna olan ehtiyacların formalaşdırılmasının balanslaşdırılması üçün dövlət tərəfindən mühüm addımlar atılır və tənzimləyici tədbirlər görülür. Bu sahənin qanunvericilik bazası da formalaşdırılmışdır, belə ki, "Taxıl haqqında" Azərbaycan Respublikasının Qanunu 2000-ci il 16 iyundan qüvvədədir[1]. Bu qanunun əsas məqsədi və vəzifələri ölkəmizdə taxıl istehsalının, tədarükünün və bazarının təşkilinin, taxılın və taxıl emalı məhsullarının keyfiyyətinin idarə edilməsinin hüquqi əsaslarının tənzimləməkdir. Qanunun 8-ci maddəsində dövlət taxıl fondunun yaradılması ilə bağlı müddəalar yer almışdır.Yaxın perspektivdə əsas strateji məqsədlər və problemlər sırasında ölkənin taxıl ehtiyatının idxaldan asılılığının minimuma endirilməsi, bununla

[1] "Taxıl haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 16 iyun 2000-ci il, № 898-IQ

əlaqədar olaraq taxıl istehsalının mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılması, məhsuldarlığın artırılması, yerli, regional və milli səviyyədə taxıl bazarının infrastrukturunun inkişaf etdirilməsi, bu bazarın fəaliyyətinin dinamikliyinə nail olunmasından ibarətdir.

Ölkənin ərzaq təhlükəsizliyinin mühüm elementlərindən olan taxıl məhsulları bazarının formalaşmasına və inkişaf etdirilməsinə metodoloji yanaşmaların təkmilləşdirilməsi, qlobal çağırışlar nəzərə alınmaqla yenilənməsi mühüm əhəmiyyət kəsb edir. Taxıl məhsulları bazarı özündə təsərrüfatçılıq sisteminin ən mühüm elementlərini birləşdirən mürəkkəb struktura malik olan bir qurumdur. Onun strukturu müxtəlif növ taxıl məhsullarının istehlak əlamətlərinin və onların təyinatının qiymətləndirilməsinə əsaslanır. Taxıl məhsulları bazarının sahə strukturu taxılçılıq məhsullarına olan tələbatın ödənilməsi və bu məhsulların istifadəsi istiqamətləri ilə bağlıdır. Qeyd edək ki, regionlarda taxıl bazarının formalaşması və inkişafının mühüm ilkin proseslərində daha səmərəli mexanizmlər tətbiq edilməli, taxıl itkisinin səviyyəsi azaldılmalı və taxıl məhsullarının tədarükü, saxlanılması və ehtiyatlarının formalaşdırılması infrastrukturunun gücləndirilməsinə xüsusi önəm verilməlidir. Taxıl məhsulları bazarının inkişafının və fəaliyyətinin tələb və təklifə adekvatlığının qiymətləndirilməsi zamanı, bu bazarın kənd təsərrüfatı məhsullarının istehsalında, aqrar sahənin emal prioritetlərinin müəyyənləşdirilməsində və, əvvəldə qeyd etdiyimiz kimi, ölkənin mühüm qida məhsulları ilə təminat bazasının yaradılmasında roluna xüsusi diqqət yetirilməlidir[2].

Sxem 1 üzrə qısa təhlil aparsaq görmək olar ki, ölkənin ərzaq təhlükəsizliyi kontekstində taxıl məhsulları bazarının formalaşması və inkişaf etdirilməsi üzrə metodoloji xüsusiyyətlər və yanaşmalar sırasında, ilk növbədə bu bazarın konseptual yanaşma səviyyəsinə qaldırılmasının vacibliyi, qanunvericilik aktlarının mükəmməlliyinin təmin olunması, bazarın strukturunun təkmilləşdirilməsi və işləkliyinə nail olunması, infrastruktur şəbəkəsinin gücləndirilməsi, praktiki fəaliyyət mexanizmlərinin optimallığının qorunması, bazar konyunkturasının ciddi şəkildə qiymətləndirilməsi, taxıl məhsullarının istehsaldan son istehlakçılara çatdırılması üzrə bütün mərhələlərin səmə-

[2] Пыжикова Н.И. Развитие рынка зерна и зернопродуктов региона. Дисс. д-ра экон. наук. Новосибирск, 2010, 279 с.

rəliliyinin gözlənilməsi, taxıl məhsulları bazarı iştirakçıları arasında inteqrativ əlaqələrin inkişaf etdirilməsinin vacibliyi diqqət çəkir. Taxıl məhsulları bazarı taxılçılıq təsərrüfatının fəaliyyətinin elə bir tipidir ki, burada bazar münasibətləri mübadilə sferası ilə məhdudlaşmır, bütün təkrar istehsal dövrünü və taxılın istehsalı, satışı və istifadəsini tənzimləyən, subyektlər arasında təsərrüfat əlaqələrini formalaşdıran münasibətləri cəmləşdirir.

Bu baxımdan ölkəmizdə ərzaq təhlükəsizliyi kontekstində taxıl məhsulları bazarının rolunun arıtırılması üçün güclü və balanslaşdırılmış taxıl ehtiyatlarının olması vacibdir. Bu baxımdan, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009- cu il 7 iyul tarixli 105 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları" mühüm əhəmiyyət kəsb edir[3].

Ümumiyyətlə, qanunvericilik sənədləri taxıl istehsalı sahəsində münasibətləri tənzimləmləyir və bir sıra məsələlərin həllinə yönəldilir: taxılın istehsalı, emalı və saxlanması qaydalarının tənzimlənməsi; taxılın keyfiyyət standartlarının təyin və təmin edilməsi; taxılın daşınması üzrə xidmətlərə sabit tariflərin təyin edilməsi.

Bir çox dünya ölkələrində taxılın qiymətinin tələb və təklifini tənzimləmək yolu ilə sabitləşdirilməsi üçün bir qrup üsul və vasitələrdən istifadə edilməsinin bəzi məqamlarını ümumiləşdirmişik:

1)Minimal zəmanətli qiymətlər - taxıl istehsalçılarının maliyyə risklərini azaltmaq məqsədilə fermerlərin nümayəndələri və hökümət arasında razılaşdırılır. Bu qiymət adətən dünya qiymətlərindən yüksək olur və ilin sonunda hökümət qiymət fərqini fermerlərə ödəyir. Daha keyfiyyətli taxılın becərilməsini stimullaşdırmaq və istehsalçıları təşviq etmək üçün bu fərq orta bazar qiymətləri əsasında müəyyənləşdirilir.

2) Güzəştli kreditlər və ya tədarük qiymətləri - bunlar fermerə yığım zamanı ödənilir. Öz təbiətinə görə bu, minimal zəmanətli qiymətlərin ekvivalentidir. Əgər, bazarda qiymətlər tədarük qiymətindən yuxarı qalxarsa, onda fermer taxılı bazarda sata və krediti qaytara bilər.

[3] "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları". Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 105 nömrəli qərarı ilə təsdiq edilmişdir.




Sxem 1. Ölkənin ərzaq təhlükəsizliyi kontekstində taxıl məhsulları bazarının formalaşması və inkişaf etdirilməsi üzrə metodoloji xüsusiyyətlər və yanaşmalar.

Yığım zamanı güzəştli kreditlərin verilməsi taxılın satışı prosesini bütün kənd təsərrüfatı ili boyunca uzatmağa imkan verir.

3) Dövlət tədarükü - daxili taxıl məhsulları bazarını tənzimləmək üçün istifadə edilir. Əgər dövlət daxili bazarda tələb və təklifin mövcud vəziyyəti ilə müəyyənləşdirilən qiymətləri artırmağı zəruri hesab edərsə, onda o taxıl əlavələrini satın almaqla və onun ixracını dotasiyalaşdırmaq hesabına süni olaraq tələbi artırır. Daxili bazarda qiymət dövlət qiymətlərindən yüksək olduğu zaman, dövlət öz anbarlarından taxılı satmaq yolu ilə qiymətlərin səviyyəsinə nəzarət edir, bu isə mahiyyətinə görə taxıl intervensiyasıdır.

4)Sahələr üzrə ödəniş - bu halda fermerlərə ödəniş əkin sahələrinin hektarına görə edilir. Dövlət qiymətlərin dünya qiymətləri səviyyəsinə enməsinə zəmanətli qiymətlərin, dövlət tədarükü qiymətləri və ya güzəştli kreditlərin həcminə müvafiq məbləğdə azaldılması yolu ilə nail olur.

5)Fermerlərin gəlirlərinin azalmasını kompensasiya etmək üçün sabitləşdirmə tədbirləri – bu formada əkin dövriyyəsindən çıxarılan sahələr üçün ödəmələr nəzərdə tutulur. Əlverişli illərdə əkin sahələri 15 %-ə qədər azaldılır, məhsul az olan illərdə isə bu azalma 5% səviyyəsində həyata keçirilir. Belə tədbirlər taxılın həddindən çox istehsalını aradan qaldımaq üçün aparılır. Torpaqların əkin dövriyyəsindən çıxarılması onu nəzərdə tutur ki, bu torpaqda heç bir kənd təsərrüfatı bitkisi yetişdirilmir, o cümlədən onu otlaq kimi istifadə etmək və dincə qoymaq qadağan edilir.

6) Taxılın minimal zəmanətli qiymətləri - ərzaq qiymətlərinin artımına gətirib çıxarmaması üçün emalçılara rəqabət aparan idxal məhsullarının qiymətləri nəzərə alınaraq müəyyənləşdirilmiş məbləğdə dotasiyalar verilir.

7) Dövlət tərəfindən əsas vəsaitlərin alınması üçün əvəzsiz maliyyə köməyinin göstərilməsi - bununla yanaşı, taxıl bitkilərinin yaxşılaşdırılması və yenilərinin becərilməsi, yeni becərmə texnologiyalarının işlənib hazırlanması üzrə elmi-tədqiqat işlərinə dövlət böyük vəsaitlər yönəldilir.

8)Birgə iştirak rüsumları - istehsalçılara əlavə istehsala görə bərabər məsuliyyət daşımaları üçün taxılın hər satılan tonundan ayırmalar şəklində tətbiq edilr. Daxili bazar sabitləşdiyi şəraitdə taxıl

idxalına nəzarət yolu ilə onu xarici təsirdən qorumağa can atırlar və bu zaman tənzimləmə aləti qismində elastik idxal rüsumlarından istifadə edilir. Taxılın həddindən çox istehsalı və onun daxili bazarı doldurduğu şəraitdə istehsalçılar dövlətə taxıl satışına ixrac rüsumları ödəyirlər, istehsal az olan zaman isə əksinə dotasiyalar verilir.

9)İdxal kvotaları - milli ərzaq bazarının müdafiəsinin daha bir üsuludur. Bunun üçün xarici taxıl istehsalçılarına milli bazara giriş məhdudlaşdırılır. Fermerlərin gəlirləri kvotalar hüdudlarında tənzimlənir.

10)Satış bazarlarını genişləndirmək üçün inkişaf etmiş ölkələrin çoxu humanitar yardım-istehsal kreditəri şəklində inkişaf etməkdə olan ölkələrə gizli dotasiyaların verilməsinin müxtəlif üsullarından istifadə edirlər. Bu güzəştlər kənd təsərrüfartı məhsullarının satış bazarlarının yenidən bölgüsü proseslərində beynəlxalq rəqabətin mühüm hissəsi kimi özünü göstərir.

Taxıl məhsullarının istehsalı və bazarının səmərəliliyi üzrə beynəlxalq təcrübədən çıxış etsək görmək olar ki, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı milli iqtisadiyyatın prioritet sahəsi sayılır, burada ərzaq bazarının inkişafı üzrə dövlətin proteksionist siyasəti həyata keçirilir. Bu problemlərin həlli üçün xarici ölkələrin istifadə etdiyi mühüm yanaşmalar və prinsiplər ölkəmizin taxılçılıq təsərrüfatlarında, eləcə də taxıl məhsulları bazarında da tətbiq edilə bilər və əsas etibarı ilə buğda məhsulunun yetişdirilməsi və ehtiyatlarının yaradılması, ümumilikdə ölkəmizdə taxıl məhsulları bazarının səmərəliliyinin artırılması prioritetləri mütləq şəkildə obyektiv qiymətləndirilməli, nəzərə alınmalıdır.

Dissertasiya işinin **“Taxıl məhsulları bazarının mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi” adlanan II fəsildə** ölkəmizdə, o cümlədən Gəncə-Qazax iqtisadi rayonunda taxıl məhsullarının istehsalının mövcud durumu, taxıl məhsulları bazarının səmərəliliyi və ona təsir edən amilləri, taxılçılıq təsərrüfatlarının inkişaf xüsusiyyətləri və potensialın qiymətləndirilməsi məsələlərinə baxılmışdır. Ölkəmizdə taxıl məhsullarının istehsalı və bazarının təhlili ilə bağlı məsələlər kifayət qədər aktuallıq təşkil edir. Belə ki, taxıl istehsalının artırılması, müasir taxılçılıq təsərrüfatlarının yaradılması ölkə rəhbərliyinin xüsusi diqqət mərkəzindədir. Prezident İlham Əliyev

"Qarabağ Taxıl" MMC-nin -özəl pilot taxılçılıq təsərrüfatının fəaliyyəti ilə tanış olarkən demişdir: "Bu gün hələ ki, biz buğda ilə özümüzü tam təmin edə bilmirik. Bunun obyektiv səbəbləri var. Ancaq bu hədəfə yaxınlaşırıq. Bununla bərabər, bizim taxılçılıqda böyük ixrac potensialımız yaranmalıdır. Ancaq, əlbəttə, ilk növbədə daxili tələbatımızı ödəməliyik"[4].

Göründüyü kimi, taxıl məhsulları istehsalının, xüsusilə buğdanın istehsal həcminin artırılmasına strateji yanaşmalar mövcuddur. Bunun üçün dövlət tərəfindən davamlı şəkildə dəstək mexanizmləri hazırlanaraq həyata keçirilməkdədir.

Diaqram 1-də Azərbaycanda 2007-2019-cu illər üzrə buğda məhsulunun ümumi özünütəminetmə səviyyəsi əks olunmuşdur. Məlum olur ki, əgər 2007 – ci ildə bu göstərici 48% olmuşdursa, 2010 – cu ildə 48,9%,  2015- ci ildə 54,8%, 2019 –cu ildə isə 57,2 % səviyyəsində olmuşdur.




Diaqram 1. Azərbaycanda buğda məhsulu üzrə ümumi özünütəminetmə səviyyəsi, %-lə, 2007-2019-cu illər.

Diaqram 2-dəAzərbaycanda 2007-2019-cu illərdə dənli bitkilər və buğda məhsulu üzrə təminatda idxaldan asılılıq səviyyəsi təhlil olunmuşdur. 2007-ci ildə buğda üzrə idxaldan asılılıq 52% olmuşdursa, həmçinin dənli bitkilər üzrə 43% idisə, bu göstərici 2019-ci ildə 42,8% və 32,7% səviyyəsində olmuşdur.

[4] İlham Əliyev Beyləqanda "Qarabağ Taxıl" Məhdud Məsuliyyətli Cəmiyyətinin özəl pilot taxılçılıq təsərrüfatının fəaliyyəti ilə tanış olub. Azərbaycan Prezidentinin rəsmi internet səhifəsi. http://www.president.az.




Diaqram 2. Azərbaycanda dənli bitkilər və buğda məhsulu üzrə təminatda idxaldan asılılıq səviyyəsi, %-lə, 2007-2019-cu illər.

Gəncə-Qazax iqtisadi rayonunda taxıl məhsullarının istehsalı və bazarının təhlili göstərir ki, bu iqtisadi rayonda 2014-cü illə müqayisədə 2019-cu ildə istehsalda 122,1% artım baş vermişdir. İstehsaldakı artım Qazax rayonunda 2,1dəfə, Tovuz rayonunda 1,5 dəfə, Şəmkir rayonunda 70,7%, Samux 181,0 %, Goranboy rayonunda isə 100,3% artım təşkil etmişdir. Bu iqtisadi rayonun ən iri taxılçılıq rayonu - Tovuzdur və 2019-ci ildə bu rayonda 45 min tona yaxın buğda istehsal edilmişdir.

Cədvəl 1. Gəncə-Qazax iqtisadi rayonunda 2014-2019-cu illər üzrə payızlıq və yazlıq buğda istehsalı, ton

| Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2019-ci ildə 2014-ci ilə nisbətən |
|---|---|---|---|---|---|---|---|
| Gəncə-Qazax iqtisadi rayonu üzrə, cəmi | 166801 | 154236 | 163596 | 198019 | 229908 | 203705 | 122,1 % |
| Gəncə şəhəri | 55 | 50 | 13 | 247 | 168 | 217 | 3,9 dəfə |
| Qazax rayonu | 14947 | 12844 | 18830 | 29840 | 33310 | 31428 | 2,1 dəfə |
| Ağstafa rayonu | 22221 | 17153 | 26927 | 26373 | 26488 | 31359 | 141,1 % |
| Tovuz rayonu | 30379 | 30546 | 31636 | 62994 | 63018 | 45342 | 1,5dəfə |
| Şəmkir rayonu | 40110 | 37086 | 37819 | 26822 | 41507 | 28369 | 70,7 % |
| Gədəbəy rayonu | 3086 | 2332 | 2735 | 3319 | 4375 | 5351 | 1,7dəfə |
| Daşkəsən rayonu | 1756 | 1837 | 1440 | 1569 | 763 | 721 | 41,0 % |
| Samux rayonu | 16392 | 15773 | 10641 | 14938 | 23210 | 19343 | 181,0 % |
| Göygöl rayonu | 11332 | 20620 | 17888 | 12550 | 14617 | 14946 | 131,8 % |
| Goranboy rayonu | 26432 | 15916 | 15589 | 19289 | 22397 | 26537 | 100,3 % |
| Naftalan şəhəri | 91 | 79 | 78 | 78 | 55 | 92 | 101,0% |

Müxtəlif mülkiyyət və təsərrüfatçılıq forması olan taxıl istehsalçıları və taxılı emal edən müəssisələr arasında iqtisadi münasibətlərin təkmilləşdirilməsi bütün yığılan taxıl məhsulunun qorunub saxlanmasını təmin etməyə, onların itkisini əhəmiyyətli şəkildə azaltmağa, taxıl resurslarını rasional istifadə etmək üçün şərait yaratmağa, əmtəə ehtiyatlarının istehsalçıdan son istehlakçıya qədər hərəkətini sürətləndirməyə, taxıl emal edən sənayenin istehsal potensialından istifadənin səmərəliliyini yüksəltməyə imkan verir.

Cədvəl 2. Gəncə-Qazax iqtisadi rayonu üzrə 2014-2019-cu illərdə dənli bitkilərin bir sentnerinin satış qiyməti, manat

| Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2019-cu ildə 2014-cü ilə nisbətən, %-lə |
|---|---|---|---|---|---|---|---|
| Gəncə-Qazax iqtisadi rayonu üzrə, cəmi | 26,78 | 26,06 | 26,30 | 23,06 | 36,16 | 34,07 | 127,2 |
| Gəncə şəhəri | 21,86 | 21,16 | 21,60 | 21,85 | - | - | - |
| Ağstafa rayonu | 24,96 | 20,00 | 21,38 | 19,34 | 37,53 | 39,93 | 159,9 |
| Tovuz rayonu | 22,62 | 21,33 | 20,87 | 27,55 | 31,16 | 30,28 | 133,8 |
| Şəmkir rayonu | 30,00 | 30,06 | 30,42 | 30,00 | 30,00 | 31,96 | 103,2 |
| Gədəbəy rayonu | 22,47 | 25,27 | 25,00 | 31,58 | 30,24 | 30,61` | 136,2 |
| Samux rayonu | 23,24 | 22,66 | 18,02 | 21,52 | 20,59 | 38,70 | 166,5 |
| Göygöl rayonu | 24,20 | 25,12 | 22,82 | 20,36 | 20,57 | 36,00 | 148,7 |
| Goranboy rayonu | 24,26 | 25,96 | 26,03 | 23,95 | 24,97 | 32,27 | 133,0 |

Qeyd: cədvəl ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir - https://stat.gov.az.).

Cədvəl 2-nin təhlilindən baxsaq məlum olar ki, Gəncə-Qazax iqtisadi rayonu üzrə dənli bitkilərin bir sentnerinin satış qiyməti 2014-cü illə müqayisədə 2019-cu ildə nisbətən artmışdır. Belə ki, 2014-ci ildə taxılın bir sentnerinin satış qiyməti, 26,78 manat olduğu halda, bu göstərici 2017-ci ildə 23,06 manat, 2018-cı ildə 36,16 manat, 2019-ci ildə isə azalaraq, 34,07 manat təşkil etmişdir. Cədvəldən göründüyü kimi, əksər rayonlar üzrə qiymətlərin səviyyəsi artmışdır.

Cədvəl 3-də Gəncə-Qazax iqtisadi rayonu üzrə 2014-2019-cu illər ərzində satılmış dənli və dənli paxlalıların rentabellik səviyyəsi verilmişdir. Göründüyü kimi iqtisadi rayon üzrə bu göstərici 2014-ci ildə 58,8 % təşkil etdiyi halda, 2015 – 93,8%, 2016- 81,1%, 2017- 47,2%, 2018 – 90,5% və 2019-cu ildə xeyli azalaraq 38,5% səviyyəsində olmuşdur.

Cədvəl 3. Gəncə-Qazax iqtisadi rayonu üzrə satılmış dənli və dənli paxlalıların rentabelliyi, faiz

| Göstəricilər | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Gəncə-Qazax iqtisadi rayonu üzrə, cəmi | 58,8 | 93,8 | 81,1 | 47,2 | 90,5 | 38,5 |
| Gəncə şəhəri | 7,6 | 6,2 | 11,2 | 13,0 | - | - |
| Ağstafa rayonu | 0,6 | 43,2 | 6,0 | 25,0 | 75,4 | 72,4 |
| Tovuz rayonu | 25,1 | 43,2 | 22,6 | 101,5 | 52,2 | 24,7 |
| Şəmkir rayonu | 152,5 | 150,1 | 149,7 | 150,0 | 151,8 | 36,5 |
| Gədəbəy rayonu | - | - | 20,0 | 20,0 | 11,0 | - |
| Samux rayonu | 18,7 | 18,1 | 42,7 | 0,3 | 120,0 | 48,6 |
| Göygöl rayonu | 26,8 | 33,9 | 27,8 | 97,2 | 228,0 | 111,7 |
| Goranboy rayonu | 29,8 | 18,02 | 4,4 | 13.4 | 3,6 | 14,0 |

Qeyd: cədvəl ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir - https://stat.gov.az.).

Qiymətin bilavasitə rentabelliyə təsirini nəzərə alaraq, cədvəl 3-d' verilmiş göstəriciləri təhlil etdikdə, ayrı-ayrı rayonlar üzrə müxtəlif nəticələr əldə edildiyi aydın olur. Belə ki, Gəncə-Qazax iqtisadi rayonu üzrə satılmış dənli və dənli paxlalıların rentabelliyinin müqayisəli təhlili göstərir ki, bu iqtisadi rayonda 2019-cu ildə rentabellik səviyyəsi son 5 il ərzində ən aşağı həddə düşmüşdür. Bununla belə, bu iqtisadi rayona daxil olan bəzi rayonlarda rentabellik səviyyəsi yüksək olaraq qalmaqdadır. Məsələn, 2018-ci ildə ən yüksək göstərici -228,0% Göy-göl rayonunun payına düşür. Şəmkir rayonu üzrə də rentabellik yüksək olmuşdur –151,8 %, bu göstərici Samux rayonu üzrə 120,0 % səviyyəsində qərarlaşmışdır. Digər rayonlarda dənli və paxlalıların rentabelliyi xeyli aşağı səviyyədədir.

Qeyd etmək lazımdır ki, taxılçılıqda səmərəli nəticələr əldə etmək üçün digər tədbirlərlə yanaşı, ən əlverişli təbii-iqtisadi şəraiti olan müxtəlif regionlarda və təsərrüfatlarda taxıl istehsalının səmərəli yerləşdirilməsi, ixtisaslaşmasının dərinləşdirilməsi və təmərküzləşməsinin yüksəldilməsi məqsədilə dövlət qiymət siyasətindən başqa, stimullaşdırma tədbirlərini də (lazım olan bitkilərin əkin sahələrinin əvvəlki ilə nisbətən genişləndirilməsi üçün əlavə maliyyə vəsaitinin verilməsi, dotasiyaların müəyyənləşdirilməsi, istehsal yerlərində saxlama ilə bağlı xərclərin kompensasiya edilməsi və s.) həyata keçirməlidir. Son illər bu istiqamətdə əhəmiyyətli tədbirlər görülmüş, taxıl sahələrinin hər hektarı üçün 200 man. subsidiya nəzərdə tutulmuşdur.

Hesab edirik ki, strateji prioritetlər və bazar iştirakçılarının iqtisadi hüquqlarının və maraqlarının müdafiəsinin öz əksini tapdığı məqsədli dövlət və regional poqramları taxıl məhsulları bazarının dövlət tərəfindən tənzimlənməsinin əsas formalarından biri olmalıdır. Bu, məqsədyönlü taxıl siyasətinin həyata keçirilməsinə imkan verir və ölkənin ərzaq təhlükəsizliyini təmin edir.

Dissertasiya işinin **"Taxıl məhsulları bazarının inkişaf etdirilməsi və səmərəliliyinin artırılması istiqamətləri" adlanan III fəsildə** taxıl məhsulları bazarında və taxılçılıq təsərrüfatlarında marketinq xidmətinin təkmilləşdirilməsi, taxıl istehsalı və emalı müəssisələrinin inkişafının sürətləndirilməsi, taxıl məhsulları bazarının dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi yolları göstərilmiş və konkret təkliflər irəli sürülmüşdür.

Bazar iqtisadiyyatının tələblərinə uyğun şəkildə formalaşan təsərrüfatçılıq mexanizmində istehlakçı və istehsalçı arasında qarşlıqlı əlaqənin səmərəli şəkildə qurulması əsas şərtlərdən hesab edilir. Əmtəə isthsalçıları, satış bazarı və emal müəssisələri arasında iqtisadi əlaqələr taxıl yarımkompleksində ən problemli məsələlərdən biridir. Bu problemlərin həlli marketinq xidməti ilə bilavasitə bağlıdır.

Aqrar sahədə marketinq fəaliyyətinin təşkili mexanizmini aşağıdakı kimi xarakterizə etmək olar:

- bazar imkanlarının təhlili – marketinq tədqiqatı, marketinq informasiyası, marketinq mühiti, topdan və pərakəndə satış bazarları;
- məqsədli bazarların seçilməsi – tələbin öyrənilməsi, bazarın seqmentləşdirilməsi, məqsədli seqmentlərin seçilməsi, bazar mövqeyinin müəyyənləşdirilməsi;
- marketinq kompleksinin işlənməsi - əmtəələrin işlənməsi, qiymətqoyma, əmtəələrin bölgüsü, stimullaşdırma;
- marketinqin köməkçi sistemi – informasiya sistemi, planlaşdırma sistemi, nəzarət sistemi, təşkilati struktur.

Aqrar-sənaye sferasında taxıl istehsalı və emalı müəssisələrinin inteqrasiya münasibətlərinin inkişafı regionlarda istehsal-satış prosesi mərhələlərinin səmərəliliyinin başlıca şərtlərindən hesab edilir. Taxıl istehsalı və emalı müəssisələrinin inteqrasiyasının iqtisadi əsası, is-

tehsal tsiklinin bütün dövrlərində məhsul istehsalının təmərküzləşməsi və ixtisaslaşmasının dərinləşməsi ilə xarakterizə olunur.




Sxem 2. Taxıl istehsalı və emalı müəssisələrinin inteqrativ inkişafının sürətləndirilməsi istiqamətləri və mexanizmləri

Aqrar-sənaye sferasının taxıl yarımkompleksində inteqrasiya prosesləri müxtəlif formalar alır. İnteqrasiya əlaqələrinin qurulmasının ən fəal inkişaf edən formaları isə aşağıdakılardan ibarətdir:

✓ iri kənd təsərrüfatı müəssisələrinin bazasında aqrar-sənaye strukturlarının formalaşdırılması;

✓ kənd təsərrüfatı əmtəə istehsalçılarının, emal, satış və digər müəssisə və təşkilatların qarşılıqlı əlaqələrinin müqavilə sistemi;

✓ iştirakçıların mülkiyyətinin tam və ya qismən birləşdirilməsi yolu ilə yaradılan aqrar-sənaye qurumları (kooperativlər, korporasiyalar və s.);

✓ qeyri-kənd təsərrüfatı müəssisələri və təşkilatları tərəfindən yaradılan kənd təsərrüfatı istehsalı və emalı müəssisələri.

Taxıl istehsalı və emalı müəssisələrinin inteqrativ inkişafının sürətləndirilməsi istiqamətlərinin hər biri üzrə praktiki fəaliyyət alətlərinin optimal təşkili və tətbiqi mühüm əhəmiyyət kəsb edir. Başqa sözlə, hər bir inteqrativ inkişaf elementinin özünəməxsus yeri və əhəmiyyəti vardır, onların təsir dairəsi sərhədlərinin obyektiv qiymətləndirilməsi və nəzərə alınması vacib şərtlərdəndir.

Hər bir ölkənin taxıl məhsullarına olan tələbatının balanslaşdırılması və taxıl məhsulları bazarının dövlət tənzimlənməsi mexanizmlərinin səmərəliliyinin artırılması dövlətin strateji vəzifələrindən hesab olunur. Müasir təsərrüfatçılıq şəraitində dövlət faktiki olaraq bazar mühitinin formalaşdırılmasını tənzimləyən və iqtisadi artımın dayanıqlılığını təmin edən əsas funksiyaları öz öhdəsinə götürür. Taxıl məhsullarına tələbatın ödənilməsində, taxıl məhsullarının istehsalı, tədarükü, saxlanılması və ehtiyatlarının yaradılması üzrə mövcud mexanizmlərin qlobal taxıl və ərzaq çağırışları əsas götürülməklə, təkmilləşdirilməsi və yenilənməsi də vacib şərtlərdəndir.

## ƏSAS NƏTİCƏLƏR

Dissertasiya işinin üç fəsildə əhatə edilən məsələlərdən nəticə çıxarılaraq taxıl məhsulları bazarının formalaşdırılması, mövcud vəziyyətinin təhlilinin qiymətlədirilməsi, bazarın inkişaf etdirilməsi və səmərəliliyinin artırılması istiqamətində inkişafa nail olmaq, taxilçılıq təsərrüfatlarında istifadə edilməsini təmin etmək üçün aşağıdakı əsaslandırılmış təkliflər irəli sürülür:

✓ Bazar münasibətlərinin və mexanizmlərinin müsbət cəhətləri, ilk növbədə, resursların səmərəli bölgüsü, çeviklik, transformasiyalara adekvat reaksiya, elmi-texniki nailiyyətlərin maksimum səmərəli tətbiqi, istehlakçıların və sahibkarların hərəkətlərinin sərbəstliyi və seçim azadlığı, iqtisadi proseslərin balanslaşdırılması imkanları, əmtəə və xidmətlərin keyfiyyətinin yüksəldilməsi potensialı, şəffaf

və sağlan rəqabət hesabına iqtisadi proseslərin səmərəliliyinin yüksəldilməsi ilə bağlıdır.

✓ Taxıl bazarının formalaşmasının və inkişaf etdirilməsinin əsas elementləri və funksiyaları ölkə əhalisinin taxıl məhsullarına olan tələbatının ödənilməsi, qida sənayesinin müəssisələrinin xammal ehtiyatları ilə təminatının təşkili, qida əlçatanlığının formalaşdırılmasında strateji əhəmiyyət daşıması ilə birbaşa əlaqəlidir.

✓ Taxıl məhsulları bazarı mürəkkəb iqtisadi münasibətlər sistemi olub, öz fəaliyyətində sosial-iqtisadi, təşkilati-iqtisadi kimi amilləri ehtiva edir. Taxıl məhsulları bazarı taxılçılıq təsərrüfatlarında istehsalı stimullaşdırmaqla, tələb və təklifin tarazlığının təmin olunmasını şərtləndirir, taxılın istehsalı, saxlanması, emalı və satışı ilə bağlı problemlərin həllinə zəmin yaradır və ölkənin ərzaq təhlükəsizliyinin təminatçısı rolunda çıxış edir.

✓ Ölkənin və regionların ərzaq təhlükəsizliyinin təmin olunması rəqabət qabiliyyətli və daha keyfiyyətli məhsul təklifi, alıcılıq qabiliyyətli tələb, resurslardan səmərəli istifadə kimi məsələləri əhatə etdiyindən və bütün bunlar bilavasitə taxıl məhsulları bazarının, eləcə də regionların taxılçılıq təsərrüfatlarının fəaliyyəti ilə əlaqəli olduğundan, bazarın formalaşması və inkişaf xüsusiyyətləri, taxılçılıq təsərrüfatlarının təbii-iqtisadi xüsusiyyətləri, resurslarla təmin olunma səviyyəsi, istehsalın ixtisaslaşması və şaxələndirilməsi prosesləri kompleks şəkildə nəzərə alınmalıdır.

✓ Taxılın istehsalı, saxlanması, emalı və satışı ilə bağlı problemlər araşdırılarkən məlum olur ki, bu istiqamətdə müsbət nəticələr infrastruktur və logistik təminatla sıx bağlıdır. Xüsusilə, məhsulların yerli və xarici bazarlara çıxarılması, keyfiyyətli şəkildə saxlanılması, məqsədəuyğun dövrlərdə məhsulun bazara çıxarılmasının təmin edilməsi infrastruktur və logistik təminatın əhəmiyyətliliyini artırır.

✓ Gəncə-Qazax iqtisadi rayonunun ölkə iqtisadiyyatında rolu və əhəmiyyəti obyektiv qiymətləndirilməklə, taxıl məhsulları istehsalı və bazarında bu regionun xüsusi çəkisinin həmin regionun mövcud potensialına adekvat olaraq artırılması tədbirlərinin görülməsini, regionda buğda istehsalının investisiya cəlbediciliyinin artırılmasını,

bir neçə rayonun - Tovuz, Qazax, Ağstafa, Şəmkir və Goranboy rayonlarının taxılçılıq istiqamətində ixtisaslaşmasının gücləndirilməsini, əkin sahələrinin artırılmadan yüksək texnologiyalar hesabına məhsuldarlığın yüksəldilməsini, xüsusi taxılçılıq təsərrüfatlarının yaradılmasını, regional taxılçılıq aqroparkının və ya regional taxılçılıq klasterinin təşkilini məqsədəuyğun hesab edirik.

✓ Azərbaycanda taxıl məhsulları istehsalının əhalinin 2050-ci ilədək olan artım proqnozuna adekvat olaraq təmin edilməsi, taxıl məhsulları bazarının inkişafı və səmərəliliyinin yüksəldilməsi məqsədilə müvafiq dövlət tənzimlənməsi mexanizmləri hazırlanmalı və tətbiq edilməlidir. Bu tədbirlərin mərhələli şəkildə yerinə yetirilməsini təmin etmək üçün ilkin mərhələdə "Azərbaycan Respublikasında taxıl məhsullarının istehsalı, bazarının inkişafı və səmərəliliyinin artırılması üzrə Dövlət Proqramı"nın (2020-2030-cu illər) hazırlanmasını və reallaşdırılmasını vacib sayırıq.

**Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**

1. Gəncə-Qazax iqtisadi rayonunda aqrar bazarın perspektiv inkişafının bəzi məsələləri. Az.EKTİ və Tİ "Azərbaycan Respublikası əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatının iqtisadi problemlərinə həsr edilmiş respublika elmi-praktik konfransın materialları". // - Bakı, -2009, -s.176-177.

2. Gəncə-Qazax iqtisadi rayonunda təbii resurslardan səmərəli istifadənin aqrar sahənin inkişafında rolu. //-Bakı: Az.EKTİ və Tİ-nun "İnnovasiyalı kənd təsərrüfatı istehsalının formalaşdırılması problemlərinə həsr edilmiş beynəlxalq elmi-praktik konfransın materialları", -2010, -s.236-238.

3. Gəncə-Qazax iqtisadi rayonunda taxılçılığın inkişafının bəzi məsələləri. // -Bakı: Az. EKTİ və Tİ- nun elmi əsərləri, №2, -2010, -s.119-124.

4. Gəncə-Qazax iqtisadi rayonunda taxılçılıq istiqamətli təsərrüfatların texniki təminat məsələləri.//- Bakı: Azərbaycan Aqrar Elmi, -2015, №1, -s.163-165.

5. Taxılçılıq məhsulları bazarının ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında rolu.// -Bakı: Azərbaycan Aqrar Elmi, -2016, №1, -s.104-106.

6. Зависимость между уровнем развития аграрной отрасли и эффективностью рынка сельскохозяйственной продукции.// Проблемы развития АПК региона. Научно- практический журнал. -Махачкала, -2016, №4(28). -стр.132-134.

7. Taxılçılıq və üzümçülüyün inkişafına dövlət dəstəyinin əsas istiqamətləri //–Bakı: Azərbaycan Aqrar Elmi. -2017, №2, -s.128-130.

8. Taxılçılıq və üzümçülük məhsulları bazarında qiymətlərin tənzimlənməsi istiqamətləri.// -Bakı: Azərbaycan Aqrar Elmi, -2018, №2, -s.144-147.

9. Gəncə-Qazax iqtisadi rayonunda taxıl məhsulları bazarının fəaliyyətinin tənzimlənməsi.// -Bakı: "Kooperasiya" elmi-praktiki jurnal, - 2019, №1 (52), -s. 69-75.

10. Проблемы и перспективы развития рынка зерновой продукции Азербайджана в современных условиях. Международный научный журнал ISJ Theoretical & Applied Science, №03 (71), -2019. Impact Factor JIF. USA, Philadelphia. -p. 517-524.

11. Taxıl məhsulları bazarının formalaşması və ərzaq təhlükəsizliyində rolu.// -Gəncə: ADAU – nun Elmi əsərləri. -2019, №1, -s.141-144.

12. Taxıl məhsulları bazarında marketinq xidmətinin təşkili. // – Bakı: "Audit" elmi-praktiki jurnal, -2019, №1, -s.115-125.

13. Международный опыт по эффективности рынка зерновой продукции." //World Science Problems and Innovations" Пенза МЧНС "Наука и просвешение"- 2019.- с.61-64.

Dissertasiyanın müdafiəsi “22” sentyabr 2021-ci il tarixində saat 16:00-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Atatürk prospekti 450, AZ 2000, Gəncə şəhəri, Azərbaycan

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 16 avqust 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:23/07/21
Kağız formatı: (210x297) 1/4
Həcm: 42682 işarə
Tiraj: 100